**Sevda İslam qızı Abbasova,**
ADPU-nun Azərbaycan dili və ədəbiyyatı tədrisi kafedrasının müdiri,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

# DÜZGÜN ÜNSİYYƏTİN QURULMASINDA DİNLƏMƏ VƏ ANLAMANIN ROLU

**Севда Ислам кызы Аббасова,**
Заведующий кафедрой преподавания азербайджанского языка и литературы в АДПУ
доктор философских наук в области педагогики, доцент

## РОЛЬ СЛУШАНИЯ И ПОНИМАНИЯ В ПОСТРОЕНИИ ПРАВИЛЬНОЙ РЕЧИ

**Sevda Islam Abbasova,**
head of the Department of teaching Azerbaijani Language and literature at the Azerbaijan Pedagogical University, PhD in pedagogy, associate professor

## THE ROLE OF HEARING AND UNDERSTANDING IN CONSTRUCTING THE RIGHT SPEECH

**Xülasə:** Məqalədə düzgün nitqin qurulmasında anlama və dinləmənin rolundan söhbət gedir. Qeyd edilir ki, insanlar öz fikirlərini, iç dünyasını ünsiyyət vasitəsilə xəbər verir, başqa insanları anlayır və onlarla münasibət qururlar. Düzgün ünsiyyəti quraraq insanlarla düzgün münasibətlər yaradırlar. Beləliklə, əməkdaşlıq yaranır və məqsədlərə daha sürətlə çatırlar. Ünsiyyət qarşılıqlı əlaqədar prosesdir və sadəcə danışıq deyil. Anlamaq, araşdırmaq, təhlil etmək və istənilən vəziyyəti təhlil etmək çox vacibdir. Dinləmə, anlama və danışma bütün şagirdlərdə ana dilinin düzgün öyrənilməsinə, dinləmə mədəniyyətinə, anlama və müstəqil nitq bacarıqlarının formalaşmasına böyük stimul verir.

***Açar sözlər:*** *ümumtəhsil məktəbləri, nitq inkişafı, nitq bacarıqları, oxu bacarığı, dinləmə, danışma, təlim nəticəsi, nitq mədəniyyəti;*

**Резюме:** В статье речь идет о роли слушания понимания и построении правильной речи. Отмечается, что люди передают свои мысли, свой внутренний мир через общение, понимают других людей и устанавливают отношения.Установив правильное общение, получают правильные отношения с людьми. Таким образом, налаживается сотрудничество и быстрее достигаются цели. Общение –процесс взаимосвязанный и не является просто переговором. Очень важно понимать, изучать, анализировать и синтезировать любую ситуацию. Слушание, понимание и говорение дают мощный импульс правильному изучению родного языка, культуре слушания, понимания и навыкам самостоятельной речи у всех учеников.



***Ключевые слова:*** *общеобразовательные школы, развитие речи, речевые навыки, навыки чтения, аудирование, говорение, результаты обучения, речевая культура;*

**Summary:** The article deals with the role of listening to understanding and building correct speech. It is noted that people convey their thoughts, their inner world through communication, understand other people and establish relationships. Having established the right communication, get the right relationship with people. Thus, cooperation is established and goals are achieved faster. The communication process is interrelated and is not just a conversation. It is very

important to understand, study, analyze and synthesize and situation. Listening, understanding and speaking give a powerful impulse to the correct learning of the native language, listening culture, understanding and skills of independent speech for all students.

***Key words:*** *general education schools, speech development, speech skills reading, listening, speaking, learning outcomes, speech culture.*

İnsanlar ünsiyyət vasitəsilə fikirlərini ifadə edir, daxili aləmlərini büruzə verir, tərəf-müqabillərini dinləyib-anlamaqla müxtəlif xarakterli əlaqələr qururlar. Düzgün ünsiyyət qurmaqla əməkdaşlığa nail olmaq, məqsədə çatmaq mümkündür. Ünsiyyət qarşılıqlı prosesdir və bunu sadəcə nitq kimi başa düşmək düzgün deyil. Hər hansı bir situasiyanı anlamaq, öyrənmək, təhlil etmək üçün ünsiyyət mühümdür. Nəyə görə mühümdür? Hər hansı bir problemin həlli üçün, əvvəlcə onu öyrənmək, aydınlaşdırmaq, dərk etmək, qavramaq lazımdır ki, bu da ünsiyyət vasitəsilə həyata keçirilir.

Ümumtəhsil məktəblərinin qarşısında duran əsas vəzifələrdən biri şagirdlərdə nitq mədəniyyətinin formalaşdırılmasıdır. Buna görə də, ibtidai mərhələdən başlayaraq, şagirdlərin ünsiyyət bacarıqlarını inkişaf etdirmək müəllimin öhdəsinə düşür. Bu, onların gələcəkdə insanlarla normal münasibət qurmasının, daha çox karyera imkanları əldə etməsi və özünəinam hissinin formalaşmasının ilkin təməlidir. Ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün ümumtəhsil məktəblərində kifayət qədər imkanlar var. Bu baxımdan dinləmə bacarığı da mühüm əhəmiyyətə malikdir. Elə bir situasiya yoxdur ki, orada ünsiyyət bacarıqlarından istifadə olunmasın. Kommunikasiya– ünsiyyət bacarıqları bizim həyatımıza birbaşa təsir edir. Nitq prosesində dinləmə bacarığı anlaşılmazlıqların qarşısını alır və uğurlu ünsiyyəti təmin edir. Söhbət zamanı dinləmə və anlama bir-birini əvəz edir. Bir çox insanlar düşünürlər ki, onların nitqlərinin müvəffəqiyyəti rabitəli nitq bacarıqlarındadır, lakin danışan şəxs müsahibinin də danışmaq istəyinə hörmətlə yanaşmalıdır.

Dinləmə bacarığı da danışmaq bacarığı qədər vacib keyfiyyətdir. Dinləmə zamanı diqqət mərkəzində tərəf-müqabil durur. Müsahibəyə maraq yoxdursa, bu qaydalara riayət etmək mümkün deyil. Dinləmənin qeyri-fəal deyil, fəal proses olması üçün bu qaydalara riayət etmək vacibdir:

1. Səbrlə dinləmək. Müasir dövrdə vaxtın azlığı və işin çoxluğu səbəbindən səbr etmək hər kəsə xas olan xüsusiyyət deyil. İlk növbədə, qarşı tərəfi səbrlə dinləməyi öyrənməyə özünüzdən başlamalısınız.
2. Söhbətin davamlılığını təmin etmək, danışanın fikrinə düzgün münasibət bildirərək cavablandırmaq üçün onu diqqətlə dinləmək lazımdır.
3. Fikrinizi söylədikdən sonra qarşı tərəfin rəyini gözləyin. Həmsöhbətiniz danışarkən qəfildən onun sözünü kəsməyin. Onun sizi aydın başa düşdüyünə əmin olun, mövzuya uyğun suallar verin və müzakirə təşkil edin. Ehtiyac yaranarsa,verəcəyiniz məlumatda müəyyən dəyişikliklər edin.
4. Ünsiyyət prosesində öz təfər-müqabilinizə hörmətlə yanaşın. Bu zaman diqqətli olmaqla yanaşı, tərəf-müqabilinizin sözünü kəsmədən dinləməyi də bacarmalısınız. Bu zaman göz kontaktı saxlanmalıdır. Qələmlə, telefonla və ya hər hansı bir əşya ilə oynamaq, otaqda o tərəf-bu tərəfə gəzişmək müsahibinizin fikrini yayındıra bilər. Belə davranış sizinlə söhbət edən şəxsə ,onun dediklərinə nə qədər az maraq göstərdiyinizi bildirmiş olar. Bir çox insanlar demək istədiklərini ilk saniyədən deyir, sonra isə onun ətrafında söhbəti uzun müddət davam etdirirlər.

Dinləmə prosesi dörd mərhələdən ibarətdir: anlama, tanıma, təhlil etmə və qiymətləndirmə, cavablandırma.

1.**Anlama.** Düzgün anlama xüsusi bir qabiliyyətdir və aşağıdakılarla xarakterizə olunur: danışanın sözünü kəsməmək, nəyi isə başa düşmədikdə onu soruşmaq, danışana diqqətli olmaq, həmin vaxt fikri yayındıran işlərlə məşğul olmamaq, söhbətin ardıcıllığına şərait yaratmaq üçün qısa və konkret suallar vermək.

2. **Tanıma**. Bu, o deməkdir ki, danışanı onun özü kimi başa düşmək lazımdır. Əgər dinləyici danışılanı başa düşməyibsə, onu yenidən soruşa bilər. Bu zaman dinləyənlərə dörd aspektdən yanaş-

maq lazımdır: deyilənlərin məzmunu, müraciət, özünüifadə və münasibət. Bu aspektləri aydınlaşdırmaqla yanlış anlamadan qaçmaq olar.

3. **Təhlil və qiymətləndirmə.** Qəbul edilmiş məlumatı təhlil etmək və qiymətləndirmək lazımdır. Bu zaman dinləmə mühüm əhəmiyyət kəsb edir.

4. **Cavablandırma.** Ünsiyyət zamanı müvafiq cavablar, susmaqla, jest və mimik hərəkətlərlə reaksiya vermək mümkündür.

Təəssüf ki, dinləməyi hər kəs bacarmır. Dinləmək susmaq demək deyil. Dinləmək, eyni zamanda açıq sual verməklə deyiləni anlamaq deməkdir. Danışanın nitqindən onun fikirlərini, hisslərini, problemlərini, arzularını, maraq və məqsədlərini öyrənmək olar.

Dinləmənin ən yaxşı forması aktiv dinləmədir. Bu, söhbətin mövzu baxımından məzmununu əhatə etməklə yanaşı, münasibətlərin səviyyəsini də nəzərə almağa imkan verir. Aktiv dinləmə zamanı, təsviri dinləmədə olduğu kimi, tərəfdaşın sözləri təkrar edilmir. Əksinə, diqqətinizi cəlb edən sözləri "tutmağa" çalışırsınız. Aktiv dinləmənin köməyi ilə, ünsiyyət zamanı əlaqələrin aspektini başa düşdüyünüzü bildirirsiniz.Başqa bir insanın yerində özünüzü təsəvvür edə biləcəyinizi və onun vəziyyətini başa düşdüyünüzü hiss etdirəcəksiniz.

Dinləmənin məqsədi informasiya qəbul etmək və onu anlamaqdır. Oxu ilə müqayisədə dinləmə yüksək səviyyədə diqqət tələb edir. Burada informasiyanın anlaşılmayan hissəsinə dəfələrlə qayıtmaq imkanı yoxdur. Mətni bir dəfə dinlədikdən sonra münasibət, fikir bildirmək lazım gəlir.

Kurikuluma qədərki dövrdə oxu və yazı bacarıqlarına çox diqqət yetirilir, şifahi nitq bacarıqları – dinləmə və danışma isə diqqətdən kənarda qalırdı. Bu bacarıqların inkişaf etdirilməsi və qiymətləndirilməsi metodikası yalnız kurikulum meydana gəldikdən sonra formalaşmağa başladı.

İbtidai təhsil səviyyəsi üzrə ümumi təlim nəticələrinə nəzər salaq. Burada qeyd edilir ki, şagird danışanın fikrinə münasibət bildirir, öz fikirlərini sərbəst və ardıcıl ifadə edir; oxuduğu mətnlərə münasibət bildirir; kiçikhəcmli rabitəli mətnlər qurur; Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndiyi məlumatları sadə formada təqdim edir.

Sonrakı mərhələdə, yəni ümumi orta təhsil səviyyəsində şagird dinlədiyi mətnlərə münasibət bildirməklə yanaşı öz mövqeyini də əsaslandırır; mətni düzgün və ifadəli oxuyur, məzmun və strukturuna görə təhlil edir; dil vahidlərindən istifadə etməklə müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər qurur, onları təkmilləşdirir; müxtəlif məzmunlu məlumatlar əsasında təqdimatlar edir; şifahi və yazılı nitqdə dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

"Tam orta təhsil səviyyəsində şagird müxtəlif mənbələrdən aldığı məlumatları təhlil edir və onlara münasibət bildirir; mətnləri üslubi-struktur xüsusiyyətlərinə görə təhlil edir və qiymətləndirir; mənbələrdən istifadə etməklə müxtəlif üslublu mətnlər qurur; müzakirə, görüş, diskussiya, tədbirlər üçün məruzə, təqdimat və ssenarilər hazırlayır; nitqin dəqiqliyi, düzgünlüyü və ifadəliliyi üçün zəruri olan normaları şifahi və yazılı nitqində tətbiq edir". (2)

Prof. Y.Ş. Kərimov qeyd edir: "Dilə yiyələnmə ailədən başlayır. Hər bir uşaq məktəbə gələnədək ana dilinin köməyi ilə ətraf aləm haqqında müəyyən təsəvvürlər əldə edir. Bu təsəvvürlər onun lüğət ehtiyatını zənginləşdirir. O, dilin köməyi ilə başqalarının dediklərini dinləyir, anlayır, ətraf aləmdəki əşya və hadisələr haqqında öz fikirlərini yaşına uyğun şəkildə ifadə edir". (3, səh. 5)

Bu sözlərdə böyük həqiqtət var. İbtidai mərhələdən başlanan dilin tədrisi, istər şagird şəxsiyyətinin formalaşmasında, onun mənəvi tərbiyəsində, istərsə də nitq mədəniyyətinə yiyələnməsində mühüm əhəmiyyət kəsb edir.

"İbtidai siniflərdən dinləyib-anlama və danışma məzmun xətti şagirdlərdə müxtəlif informasiyaları təhlil etməyi, ümumiləşdirmə aparmağı, öz mövqeyini əsaslandırmağı inkişaf etdirir, onun müşahidə etdiyi şəkil, əşya, mənzərə və hadisə əsasında hekayə qurmağı öyrədir, sadə nitq etiketlərinin tanınması, işlənmə yerinin və məqamının anlaşılması, dialoqlarda görüşmə, təşəkkür və üzrxahlıq etiketlərindən istifadə olunmasını təmin edir. Dilə köməkçi vasitələrin – sadə jest və mimik

hərəkətlərin işlənmə məqamının müəyyənləşdirilməsini, kiçikhəcmli bədii mətnlərdəki fikri ifadə edərkən onlardan məqsədəuyğun şəkildə istifadə olunması bacarıqlarını inkişaf etdirir".(2)

Nitq bacarıqları tənqidi təfəkkürlə və sərbəst ünsiyyətlə üzvi surətdə bağlıdır.

Nitq inkişafında nitqin düzgünlüyü mərkəzi yer tutur. Nitqin düzgünlüyündən o vaxt danışmaq olar ki, o, dil normalarını (fonetik, orfoepik, leksik, söz yaradıcılığı, semantik, qrammatik, üslubi) pozmasın. Dilin normaları dedikdə fonetik, orfoepik, leksik, morfoloji, orfoqrafik, sintaktik, punktuallıq, üslub qaydaları və qanunlar nəzərdə tutulur. Nitq prosesi üç mərhələdən ibarətdir: danışmaq, eşitmək, dərk etmək.

***Danışmaq*** – danışıq üzvləri vasitəsilə ilə həyata keçirilir və nitq səsləri ilə reallaşır.

***Eşitmək*** – eşitmə orqanı vasitəsilə həyata keçirilir və fikrin doğru, düzgün dərk olunmasını təmin edir.

***Dərketmə*** – nitq prosesinin nəticəsi, sonu olaraq meydana çıxır və daha çox təfəkkürlə bağlı olan prosesdir.

Dil öz ifadəsini nitqdə tapır, yəni nitq dilin ifadə vasitəsidir. İnsanın cəmiyyət üçün faydalı şəxsiyyət kimi formalaşmasının meyarlarından biri onun nitq mədəniyyətinə yiyələnməsidir. Bu baxımdan ümumtəhsil məktəblərində nitq inkişafı üzrə işlər ümumpedaqoji problemlərdən biridir və təlimin bütün mərhələlərində xususi yer tutur. Kurikulum təhsil sənədində də bu məsələlər aktuallıq kəsb edir.

Azərbaycan dili üzrə mətnin dinlənilməsinin səmərəli təşkili üçün tətbiq edilən qaydalar :

- Dinləmə üçün uşaqların yaşına və maraq dairəsinə uyğun mövzu seçilməlidir. Şagird bilməlidir ki, dinləmə bitdikdən sonra o, nitqi dinlədiyini sübut etməlidir. Dinləməyə başlamazdan əvvəl çalışmaq lazımdır ki, şagirdlər öz yerlərində rahat otursunlar, partaların üstündə və ümumiyyətlə, sinifdə onların diqqətini yayındıracaq heç bir şey olmasın.
- Natiq (şagird və ya müəllim) elə yerdə dayanmalıdır ki, bütün uşaqlar onu görə, onun jestlərini və sifət hərəkətlərini (mimikasını) izləyə bilsinlər. Mətn aramla və intonasiya ilə oxunmalı, arada fasilə edilməlidir. Mətn həcmcə böyük olarsa, bitkin hissələrə bölünməli və mərhələlərlə oxunmalıdır. Hər hissənin səsləndirilməsi 5 dəqiqədən çox çəkməməlidir.
- Hər hissə səsləndirildikdən sonra müəllim oxunu dayandırıb, uşaqlara düşündürücü suallar verməlidir. Suallar uşaqların diqqətini mətn üzərində cəmləməli, onları mətnin davamına daha diqqətlə qulaq asmağa stimullaşdırmalıdır. Müəllim mətndə səslənən hər hansı bir sözün uşaqlar üçün tanış olmadığını ehtimal edərsə, fasilə verməli, onun mənasını kontekstdən çıxış edərək açıqlamalıdır.

Dinləmə dərslərində uşaqları daim sual verməyə və fikir bildirməyə sövq etmək lazımdır. Onlar yalnız öyrənmək üçün deyil, anladıqlarını nümayiş etdirmək üçün də bir-birinə suallar verə bilərlər. Verilən suallar şagirdlərin dinləmə bacarıqlarını qiymətləndirmək üçün meyar rolunu oynaya bilər.

Dilin öyrədilməsində dərslikdə verilmiş rabitəli mətnlər əsas material rolunu oynayır. Mətnlə bağlı söylənilmiş fikirlər şagirdlərə dinləmə və danışma bacarıqlarını əlaqələndirməyə imkan verir. Eyni zamanda, müəllim məzmun standartlarını da mətn vasitəsilə reallaşdırır. Mətn şagirdlərə istənilən nitq vahidi (səs, hərf, söz, cümlə) ilə bağlı fəaliyyət qurmağa, ünsiyyətə girməyə imkan verir. Mətn şagirdin analitik, məntiqi, tənqidi, yaradıcı təfəkkürünün inkişafı üçün də əvəzolunmaz material rolunu oynayır.

Nəzərə almaq lazımdır ki,dilin tədrisində mətnlə bağlı çalışmalar şagirdin nitq bacarıqlarının inkişafına xidmət etməlidir.Şagird mətnin məzmununu mənimsəməklə təfəkkürünün inkişafına, dünyagörüşünün genişlənməsinə də nail olur, lakin Azərbaycan dili dərslərində əsas məqsəd mətni dinləyib, oxuyub anladığını rabitəli şəkildə danışmaq və ya yazmaqdır. Dinləmə materialı maraqlı olmalıdır ki, uşaqlar onu dinləsinlər və danışmağa həvəsli olsunlar. Təlimin müəyyən mərhələlərində şagirdin dinləmə üzrə bir sıra bacarıqları da hədəf seçilə və qiymətləndirmə zamanı meyar kimi götürülə bilər:

- Dinlədiyi mətn parçasını öz sözləri ilə nəql edir.

- Dinlədiyi şerin məzmununu nəsrə çevirə bilir.
- Dinlədiyi mətnə çəkilmiş şəkillərin süjetə uyğun ardıcıllığını müəyyən edir.
- Dinlədiyi mətnlə illüstrasiya arasındakı uyğunsuzluğu müəyyən edir.
- Dinlədiyi ifadə mətnlərini qurulmuş plana əsasən öz sözləri ilə yazır. (2)

Danışma– bildiklərini və düşündüklərini şifahi nitq vasitəsilə ifadə etmək bacarığıdır. Səlis və gözəl danışmaq həyatda insana uğur gətirən vacib bacarıqlardan biridir. Bəzən hətta yüksək təfəkkürlü insanlar danışma bacarığına kifayət qədər yiyələnmədiklərindən uğur qazana bilmirlər. Odur ki, hər bir insan nitqin köməyi ilə cəmiyyətdə özünü ifadə etməyi bacarmalıdır. Bu bacarıq insanın həyatı boyu təkmilləşdirilməlidir və proses nə qədər tez başlasa, o qədər yaxşıdır. Bu prosesdə uğuru təmin edən iki əsas amil – söz ehtiyatının zənginləşdirilməsi və rabitəli nitq qurmaq bacarığıdır.

Danışmanın üç mərhələsini qeyd etmək lazımdır: *gördüyünü (şəkli) sözlə təsvir etmək; dinlədiyini və ya oxuduğunu öz sözləri ilə nəql etmək; düşündüyünü danışmaq*.

Azərbaycan dilinin tədrisində şəkli sözlə təsvir etmək bacarığı ibtidai təhsil pilləsində – əlifba mərhələsində formalaşdırılır. Dinlədiyini və ya oxuduğunu öz sözləri ilə nəql etmək bacarığının da əsasları I sinifdə qoyulur və II sinifdə inkişaf etdirilir.

Danışmanın üçüncü mərhələsi – düşündüyünü danışmaq daha çətin əldə edilən bacarıq olduğu üçün təhsilin bütün pillələrində, eləcə də sosial cəhətdən fəal və intellektual insan tərəfindən bütün həyatı boyu inkişaf etdirilməlidir. Təsadüfi deyil ki, bu bacarıq ayrıca bir elmin – natiqliyin (ritorikanın) predmetinə çevrilmişdir.

Düşündüyünü danışmaq ona görə çətindir ki, burada insan beyni iki fəaliyyət növünə cəlb olunur: düşünmək və danışmaq. Bu fəaliyyət insan üçün o zaman asanlaşır ki, səlis və düzgün danışmaq mexaniki vərdişə çevrilmiş olsun, yəni insanın zəngin lüğət ehtiyatı olmalıdır ki, rabitəli nitq qurarkən sözləri yerli-yerində işlətməkdə çətinlik çəkməsin. Bu bacarıq təlimin ilk günlərindən formalaşdırılmalı və inkişaf etdirilməlidir.

Şifahi nitq bacarıqları nümayiş etdirilir. Bu standarta uyğun olaraq, şagirdlər fikirlərini ifadə edərkən cümləri düzgün qurur, öz qənaətləri əsasında mətni genişləndirir, fikirlərini konkret və aydın ifadə edir, faktlarla əsaslandırırlar. Bütün bunlarla yanaşı, gündəlik həyatlarında müşahidə etdikləri əşya və hadisələr haqqında da fikir bildirirlər. Jest, mimika kimi əl-qol hərəkətlərindən istifadə etməklə də nitq bacarıqlarını nümayiş etdirirlər.

Beləliklə, *dinləyib-anlama və danışma* məzmun xətti bütün şagirdlərdə ana dilinin düzgün mənimsənilməsinə, şagirdlərdə dinləmək mədəniyyətinin, dinlədiyini anlama və müstəqil danışıq bacarıqlarının inkişafına böyük təkan verir. Hər bir insan ətraf aləm haqqında məlumatları, təəssüratlarını oxu və dinləmə bacarıqları sayəsində qəbul edir və mənimsəyir. Şagirdlərin öz şifahi nitqlərini qurmaq və fikirlərini sərbəst şəkildə ifadə edə bilmək bacarığı bu məzmun xətti vasitəsilə inkişaf etdirilir.

**Məqalənin elmi yeniliyi**. Məqalədə qeyd olunur ki, kurikuluma qədərki dövrdə oxu və yazı bacarıqlarına çox diqqət yetirilir, şifahi nitq bacarıqları – dinləmə və danışma isə diqqətdən kənarda qalırdı. Bu bacarıqların inkişaf etdirilməsi və qiymətləndirilməsi metodikası yalnız kurikulum meydana gəldikdən sonra formalaşmağa başladı.

**Məqalənin praktik əhəmiyyəti**. Məqalədə dilin tədrisində mətnlə bağlı çalışmaların şagirdin nitq bacarıqlarının inkişafına xidmət etməsi təhlil olunur. Şagird mətnin məzmununu mənimsəməklə təfəkkürünün inkişafına, dünyagörüşünün genişlənməsinə də nail olur.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu). (I-IV siniflər). Bakı, 2012.
2. Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə təhsil proqrami (kurikulumu). (I-XI siniflər). Bakı, 2013.
3. Kərimov Y. Ş. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2013.
4. İsmayılov R.,Orucova G.,Xəlilov Z., Cəfərova D. Azərbaycan dili (2-ci sinif). Bakı: "Altun Kitab", 2009.